# Nəriman Nərimanov Azərbaycanı Şərq üçün nümunəvi respublikaya çevirmək istəyirdi

## *(Nəriman Nərimanovun anadan olmasından 145 il keçir)*

**(əvvəli 10 və 11 sentyabr tarixli saylarımızda)**

Türkiyə-Rusiya münasibətlərini həm Azərbaycan, həm də Türkiyə üçün sərfəli məcraya yönəltməyə çalışan N.Nərimanov “erməni məsələsi”ndə Rusiyanı ehtiyatlı mövqe tutmağa çağırırdı. Nərimanov Qars müqaviləsinin hər bir Qafqaz respublikası tərəfindən ayrıca təsdiq olunmasında təkid edən Türkiyə diplomatiyasının son ümid yeri olmuşdur. Türkiyənin xarici işlər naziri Yusif Kamal N.Nərimanovdan xahiş edirdi ki, öz nüfuzundan istifadə edərək Qars müqaviləsinin respublikalar tərəfindən və ittifaq orqanlarında ratifikasiyasını təmin etsin. Moskvanın göstərişinə görə isə hər hansı separat müqavilədən söhbət belə gedə bilməzdi: “Azərbaycan hökuməti digər Qafqaz respublikaları ilə danışmadan türklərlə müqavilə imzalamağa qəti yanaşmasın” (G.V.Çiçerin). B.Şahtaxtinskinin yazdığına görə, o və M.-D.Hüseynov Nərimanovu “bütün lazımi dəlillərlə təchiz edib, türklərə onlarla heç bir separat müqavilə bağlamayacaqlarını birdəfəlik anlatmaq üçün hazırladıqları” halda Nərimanov bütün bunlara rəğmən separat müqavilənin bağlanmasına dair türklərə tam və qəti razılıq vermişdi. Azərbaycanın, ümumən Şərqin mənafeyi ilə bağlı prinsipial məsələlərdə təkbaşına mövqe nümayiş etdirməyi yetərsiz saydığından N.Nərimanov rəhbər partiya qurumlarında ona dəstək verə biləcək əksəriyyəti təmin etməyə çalışırdı. Bu yöndə ardıcıl mübarizəsi fayda vermədikcə, təkbaşına qərarlar qəbul edir, B.Şahtaxtinskiyə məktubunda yazdığı kimi, artıq “Şərq barəsində düşünmür, bütün diqqətini Azərbaycanı əldə saxlamağa yönəltmişdi”. Böyük siyasət müstəvisində N.Nərimanov kiçik Azərbaycan respublikasının ərazilərini qorumaq uğrunda mübarizə aparırdı. Azərbaycanın əzəli, tarixi torpaqlarının siyasi yolla zəbt edilməsinə qarşı mübarizəsində N.Nərimanovun istifadə etdiyi daha bir təzyiq vasitəsi Şərqin Sovet Rusiyasına münasibəti ilə şərtləndirilirdi: “Bizə birbaşa bildirirlər ki, siz tamamilə mübahisəsiz əraziləri Azərbaycanın əlində saxlaya bilmirsiniz, ancaq Şərqin azadlığından dəm vurursunuz”.

N.Nərimanov məscidlərin və digər ziyarətgahların təhqir olunmasına qarşı əzmlə mübarizə aparırdı. Ayrı-ayrı din xadimlərinə qarşı aparılan sərt siyasət əleyhinə çıxırdı. Əhali arasında nüfuzlu dindar hesab edilən Molla Məhəmməd Axund Pişnamazzadə həbs edilərkən Nərimanovun işə qarışması onu xilas edə bilmişdi. Nərimanov məscidlərə qənd, çay, sabun, kəfən üçün parça buraxılması barədə sərəncamlar verir, Bakı məscid ruhani başçılarının ərizələrinə həssaslıqla yanaşırdı. Onun islam dininə və ruhanilərinə münasibəti 1923-cü ildə “Nərimanovun işi” üzrə müzakirələrdə ittiham mövzularından biri sayılırdı: “O həm də fəhlələrə deyil, məscid rəhbərlərinə qənd, çay və hətta dəfn üçün kəfənlik verərək qismən Şaxsey-Vaxseyi müdafiə edirdi”. Mömin qadının dini hisslərini təhqiredici plakatın şəhərdə asılması onu qəzəbləndirmiş, mərkəzi mətbuat idarəsinə xüsusi telefonoqram göndərib plakatı çıxartmağı tələb etmişdi.

Ənənəvi inqilabçılardan fərqli, ziyalı təbiəti (siyasi fəaliyyətində yox olmayan, büruzə çıxan, bəzən də diktə edən) aparıcı olan Nərimanov çevik, çarpaşıq, mürəkkəb siyasi hadisələr burulğanında ziyalıların ruhi durumunu anlamağa qadir idi. Xalqın maariflənməsi işində məktəb, müəllim kadrlarına istinad edirdi: “Hər bir ziyalının borcu türk (Azərbaycan) dilini bilən savadlı kadrlar hazırlamaqdır”. N.Nərimanov türk (Azərbaycan) dilinin dövlət dili səviyyəsində inkişafına xüsusi əhəmiyyət verirdi: “Öz dilini lazımi səviyyədə bilməyən ziyalı millətin həyatında gərəksiz bir heçə çevrilir”.

Nərimanovun bu sahədə də mövqeyi və baxışları fərqli olduğundan ona “millətçi liberal burjuaziya ziyalısı” damğası vurmuşdular. N.Nərimanovun sadə xalqla, ziyalılarla olan səmimiyyətini bolşevik rəhbərləri nəinki qəbul etmir, əksinə, sərt ittiham edirdilər. Onun siyasətini müsavatçı fəaliyyət hesab edirdilər: “Bəs Nərimanovun siyasəti necədir? Millətçi, müsavatçı, antisemit!” (Q.K.Orconikidze). N.Nərimanov R.Axundovun onu müsavatçılıqda ittiham etdiyini - “Yol.Axundov iddia edir ki, mən müsavatçıyam, o isə kommunist” söylədikdə R.Axundov “Bəli, siz daxilən müsavatçısınız” deyərək sözlərini təsdiqləmişdir. Nərimanov tərəfindən “keçmiş eser” ifadəsilə təqsirləndirilən R.Axundov 1923-cü ilin yayında “Nərimanovun işi” üzrə müzakirələrdə keçmiş siyasi mənsubiyyətini örtbasdır etmədən bildirmişdi: “Yol.Nərimanov kimi mahiyyətcə müsavatçı olmaqdansa, kommunist və keçmiş eser olmaq daha yaxşıdır”. R.Axundov N.Nərimanovu siyasi fiqur kimi məhv etməyin yolunu onun fəaliyyətinin sovet hakimiyyəti üçün çox təhlükəli olduğunu əsaslandırmaqda görürdü: “Bizə Azərbaycanda olan nərimanovçuluq bəlasının üstünü birdəfəlik açmaq lazımdır, biz burada hər şeyi açmalıyıq, əks təqdirdə bu bizə sultanqaliyevçilik təhlükəsidir”.

“Nərimanovçuluğun” “sultan - qaliyevçilik” qədər təhlükəli olduğunu vurğulamaq, həmin dövrdə N.Nərimanovu da Sultanqaliyevin aqibətinə məruz qoymaq demək idi. N.Nərimanovun RK(b)P Mərkəzi Komitəsinə, İ.V.Stalinə, L.D. Trotskiyə, K.B. Radekə ünvanlandığı “Ucqarlarda inqilabımızın tarixinə dair” məruzəsi M.Sultanqaliyev vasitəsilə Kazan kommunistlərinə çatdırılmışdı.

Azərbaycanın bolşevik elitası yerli burjuaziyaya qoruyucu, himayəçi münasibət damğası ilə günahlandırdığı N.Nərimanovu “yerli rəhbər yoldaşlara qarşı iftiralı çıxışına görə” lazımi məsuliyyətə cəlb edib, cəzalandırmağı tələb edirdi. M.-D.Hüseynov Nərimanovun tənqidi mülahizələrini M.-Ə.Rəsulzadənin mühacirətdəki fəaliyyəti ilə eyniləşdirirdi. “Rəsulzadənin İstanbulda bizə qarşı şiddətli kampaniya apardığı, kitabçasını nəşr etdirdiyi və öz ətrafında bizim bütün əks-inqilabçıları topladığı belə bir vaxtda Nərimanov bizə qarşı özünün şiddətli kampaniyasını inkişaf etdirir. Mən əlbəttə ki, Nərimanovun Rəsulzadə ilə əlaqəsinin olduğunu düşünmürəm. Amma o, Rəsulzadənin dəlillərini açıqdan-açığa təkrarlayır. Nərimanov bunu nəzərə almalıdır”.

Çoxsaylı və uzun müzakirələrdən sonra Azərbaycan kommunist partiyasının məsul işçilərinin yığıncağının qəbul etdiyi qətnamə N.Nərimanovun məruzəsini partiyaya qarşı yönəlmiş akt, özünü isə açıq-aşkar millətçi hesab etmişdir. Mərkəzi Nəzarət Komissiyası da “qərəzli zərərli yanlış informasiya”ya görə Nərimanova şiddətli töhmət verməyi və onun yaxın vaxtlarda Azərbaycana səfərlərinin zərərli olduğunu razılaşdırmışdı. Y.Yaroslavskinin başçılıq etdiyi komissiyanın fəaliyyətini qərəzli hesab edən N.Nərimanov yeni komissiyanın yaradılmasını tələb etmirdi. Onun məsləkdaşlarını həbs etmək təhdidi ilə toplanan məlumatların faydasız olacağını, Bakı partiya təşkilatının ona qarşı olduğunu, Ermənistan və Gürcüstanın rəhbər təşkilatlarının da ona xeyirxah münasibətdə olmadığını əsas gətirərək Siyasi Bürodan SSRİ MİK-in sədri vəzifəsindən azad olunmasını xahiş edirdi. Həmçinin namizədliyinin məsul vəzifələrə irəli sürülməməsini, Moskvada yalnız mədəniyyət işləri ilə məşğul olmağa icazə verilməsini xahiş edirdi. **İstefa tələbləri N.Nərimanovun mövqeyindən geri çəkilmə, özünü təqsirkarbilmə, yanlış olduğunu etiraf etmə jesti deyildi, əksinə mülahizələrində haqlı olduğunu bildirdikdən sonra cəzadan qorxmadığını, istefa verməyə hazır olduğunu bəyan etməsi mərkəzi orqanlara, bolşevik liderlərinə təzyiq vasitəsi idi.** N.Nərimanov Mərkəzi Nəzarət Komissiyasının ona qarşı sərt münasibəti qarşısında, gözlənilən ağır partiya hökmlərinə rəğmən mövqeyini dəyişmədi. N.Nərimanovun Mərkəzi Komitəyə ünvanlanmış geniş məruzəsini, orada tənqid hədəfinə tutulan bolşevik liderləri ilə birlikdə hərfinə qədər çözələyən komissiya ümumilikdə Nərimanovun məruzəsini millətçi, antierməni, antisemit ruhlu hesab edib bütövlükdə tamamilə əsassız saymış, onun ittihamlarını iftira sayaraq, qəti surətdə rədd etmişdir. Komissiyanın fəaliyyəti və rəyi ilə bağlı N.Nərimanovun ÜK(b)P MK Siyasi Bürosuna ərizəsi 1923-cü il noyabrın 15-də Siyasi Büroda müzakirə olunmuş və qəbul edilmiş qərara görə N.Nərimanovun ərizəsinin və Y.Yaroslavskinin əks-ərizəsinin yaratdığı anlaşılmazlıq aradan qalxmış hesab edilmişdir. Qərarın ikinci bəndində Mərkəzi Komitənin Nərimanova tam etimad etdiyi təsdiqlənir və Nərimanova istefa haqqında ərizəsini geri götürmək təklif edilirdi. Çoxsaylı müzakirələrin gedişatına, MNK-nın münasibətinə və rəyinə rəğmən belə bir qərarın siyasi mülahizələr səbəbindən qəbul edilməsi şəksizdir.

Partiyanın Mərkəzi Komitəsinin Siyasi Bürosunun N.Nərimanova etimad göstərməsi, onun fəaliyyət sərbəstliyini buxovlayacaq təsirə malik siyasi jest kimi də anlaşıla bilər. Etimadın göstərilməsini müəyyənləşdirən şərtlər N.Nərimanova bəlli olsa da, o nəinki Mərkəzi Komitəyə yazdıqlarını təkzib etdi, həm də passiv müşahidəçi kimi də qalmadı. 3 həftəlik məzuniyyətinin bitməsindən az sonra, 1923-cü il dekabrın 23-də, MK-ya təqdim etdiyi geniş məruzəsinə əlavələr etdi.

1923-cü ilin sonunda “biz uçurumun kənarındayıq” deyən Nərimanov kommunist partiyasının, bolşevizmin artıq iflasa uğradığını labüd hesab edirdi. Bu əminliklə də “gələcəkdə tarixi bir sənəd kimi əhəmiyyət kəsb edəcəyi” qənaətilə “Ucqarlarda inqilabımızın tarixinə dair” məruzəsini yazırdı. Mərkəzi Komitəyə, konkret şəxslərə ünvanlansa da, N.Nərimanov özünün etiraf etdiyi kimi, gələcək nəsillər üçün tarix yazırdı. Pessimist ruhlu bu tarixin müəllifi Şərqdə sosialist tarixini yaradanlardan biri idi. Mövcud hakimiyyətə iradlarında özünü haqlı sayan Nərimanov vaxt proqnozunda yanılmışdı. SSRİ məkanında (o cümlədən daha geniş coğrafiyada) Sovet hakimiyyətinin ömrü onun düşündüyündən uzun oldu. N.Nərimanovun vəfatından 65 il sonra SSRİ – dünyada kommunist rejiminin nəhəng qalası süqut etdi. Nərimanov 5 yaşlı oğluna yarımçıq, amma məzmunca dərin məktubunda “Bəlkə də sən bu sətirləri oxuyan vaxt bolşevizm olmayacaq” yazanda oğlunun oxuya bilmək yaşını, imkanını nəzərdə tuturdusa, bir cəhətdən haqlı çıxdı. İkinci Dünya müharibəsində həlak olmuş 24 yaşlı Nəcəf Nərimanovun qəbiri üstündə bu məktubu 1957-ci ilin payızında çiskinli havada N.Nərimanov irsinin fədakar tədqiqatçısı Vəli Məmmədov fanar işığında oxumuşdu. “Tamamilə məxfi” qrifi altında saxlanılan bu məktubla və Nərimanovun Mərkəzi Komitəyə ünvanladığı geniş məruzəsi ilə Azərbaycan cəmiyyəti 1990-cı ildə rus dilində, 1992-ci ildə isə Azərbaycan dilində tanış ola bildi. Yəni artıq sovetlər dövləti süqut etmiş, onun siyasi ideologiyası iflic vəziyyətə düşmüşdü. Təbii ki, N.Nərimanovun sovet rejimini, onun səhv siyasətini qamçılayan yazılarını da ancaq həmin quruluşun devrilməsindən sonra kütləviləşdirmək olardı. “Bu sənədin işıq üzü görməyə imkanı yoxdur, lakin vaxt olacaq ki, tarix bizim qəzanın müqəssirlərini axtaracaqdır” (N.Nərimanov). Bu qəbildən yazılar hakimiyyəti təhdid edə biləcək mənəvi, ideoloji gücə malik idi. Sovet cəmiyyətinin “yekdilliklə” qəbul olunan qərarlarla vahid mərkəzdən idarə olunması mexanizmi laxlaya bilərdi. Bu “yekdilliyin” mahiyyətinin hələ 1923-cü ildə hamıya bəlli olduğunu Nərimanov etiraf edirdi: “Bizim şəraitdə bu yekdil qərarın nə demək olduğunu hər kəs bilir”. “Əgər əlverişli şərait yaranarsa”, özünün “Ucqarlarda inqilabımızın tarixinə dair” qısa məktublarını “gələcək nəsil üçün davam” etdirəcəyini bildirən Nərimanov sözünə sadiq qaldı. 1924-cü il mayın 27-də məruzəsinə daha bir əlavə etdi: **“Azərbaycandan olan türkləri Azərbaycanın mənafeyini müdafiə edənlərə qarşı çıxış etməyə məcbur edirlər...** Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir”.

**(davamı növbəti saylarımızda)**

**Firdovsiyyə ƏHMƏDOVA,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, Əməkdar müəllim.**